# Sülh bəşəriyyətin ən böyük arzusudur

*Sülh—həyat, yaşamaq, sağlam nəsillər deməkdir. Bəşəriyyətin dayanıqlı inkişafı, insan hüquq və azadlıqlarının həyata keçirilməsi sülh və təhlükəsizliyin təmin edilməsindən asılıdır. İnsan hüquqları, bərabərlik, inkişaf, azad cəmiyyət və insani dəyərlərin özülündə dayanan sülh məfhumu bu gün beynəlxalq aləmdə həllini gözləyən ən vacib məsələlərdəndir. Sülhün qorunması, insanların əmin-amanlıqda yaşaması, amansız müharibələrin, hər cür zorakılığın dayandırılması arzusu bütün tarix boyu bəşəriyyəti düşündürüb. Amma təəssüf ki, tarix boyu, bəlkə də, elə ən çox pozulan bu arzu, bu istək olub.*

21 sentyabr Beynəlxalq Sülh Günüdür. Beynəlxalq Sülh Günü 1981-ci ildə BMT tərəfindən təsis edilib və ilk sülh günü 1981-ci ilin sentyabrında qeyd olunub. Həmin vaxtdan Beynəlxalq Sülh Günü sentyabr ayının hər 3-cü çərşənbə axşamı qeyd edilirdi. Lakin 2001-ci ildə Böyük Britaniya Birləşmiş Krallığı tərəfindən təklif olunan qətnaməyə uyğun olaraq 2002-ci ildə BMT sülh günü üçün 21 sentyabr tarixini dəqiq tarix kimi müəyyənləşdirərək bu tarixi ümumdünya atəşkəs günü elan etmişdir.

Beynəlxalq Sülh Günü dünya miqyasında, o cümlədən ölkəmizdə əlamətdar bayram kimi geniş qeyd edilir. Bu tarixi gün insanların sülh diləyini, sülh şəraitində yaşamaq hüququ ilə yanaşı, bütün insan hüquq və azadlıqlarının gerçəkləşməsinin, bəşəri arzuların fövqündə dayanmaqla hər bir istəyə yalnız sülh şəraitində çatmağın mümkünlüyünü təcəssüm etdirir.

Dünya ölkələrinin yekdil qərarı ilə əlamətdar gün kimi qəbul edilmiş Beynəlxalq Sülh Gününün əhəmiyyəti zaman keçdikcə, münaqişə ocaqları alovlandıqca üzə çıxır. Sülh naminə aparılan fəaliyyət həyati əhəmiyyət kəsb etsə də, təəssüflər olsun ki, heç də hər yerdə qorunmur, müdafiə edilmir, dünyada milli münaqişələr daha da çoxalır, fiziki coğrafiyası genişlənir. Dünyanın müxtəlif qütblərində yaşayan saysız-hesabsız insanlar üçün sülh hələ də əlçatmazdır.

İnsan hüquqları, sülh və dözümlülük mədəniyyətinin təbliği, əhalinin hüquqi cəhətdən maarifləndirilməsi, onların hüquqi düşüncə və mədəniyyətinin günün tələbləri səviyyəsində inkişaf etdirilməsi demokratik-hüquqi dövlətin və vətəndaş cəmiyyətinin qurulması prosesinə təkan verən ən mühüm amillərdəndir.

Sülh günü nəinki xalqlar arasında, həmçinin ailələrdə, cəmiyyətdə, ictimaiyyətdə münasibətlərin sağlamlaşmasına, zorakılığa qarşı mübarizənin gücləndirilməsinə nail olmaq üçün bir imkandır.

Ölkəmizdə də hər il 21 sentyabr tarixi sülh günü kimi qeyd edilir. 21 avqust - 21 sentyabr tarixlərində elan olunan və ənənəvi xarakter daşıyan "Sülh aylığı" da əhalinin müxtəlif qrupları arasında hüquq mədəniyyətinin, hüquq düşüncəsinin inkişaf etdirilməsi məqsədini daşımaqla universal dəyərlərin, insan hüquqlarının təbliğinə xidmət edir.

Azərbaycanımızın dünyada bəyənilən xüsusiyyətlərindən biri də əhalisinin tərkibinin müxtəlif xalqlardan, millətlərdən və etnik birliklərdən ibarət olmasına baxmayaraq onların mehribanlıq və əməkdaşlıq şəraitində yaşamasıdır. Tarixən və bu gün də Azərbaycanda yaşayan insanlar arasında milli və ya dini ayrı-seçkiliyə yol verilmir. Tolerantlıq, milli-etnik dözümlülük, sıx əməkdaşlıq, bərabər imkanlarla iştirak milli mentalitetimizin ayrılmaz cəhətlərindəndir. Ümummilli liderimiz Heydər Əliyevin sözləri ilə desək, "Tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O, həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir. O təkcə dinlərin bir-birinə yaxınlaşması deyil, onların bir birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir".

Azərbaycan xalqının Beynəlxalq Sülh Gününü qeyd etməsi isə, təbii ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllindən keçir.

XX əsrdə tarixin ən dəhşətli səhifələrindən biri, genosid siyasətinin davamı olaraq Ermənistanın Azərbaycana qarşı 25 ildən çox davam edən təcavüzüdür.

Sülh, bu gün torpaqlarının 20 faizi işğal altında olan, bir milyondan çox qaçqın və məcburi köçkünü olan Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən mövzulardan biridir. Təəssüf ki, ən sülhsevər xalqlardan biri olan azərbaycanlılar dünyanın ən tolerant ölkəsinin vətəndaşları Ermənistanın ölkəmizə təcavüzü nəticəsində öz vətənlərində didərginə dönüblər. Bu illərdə Azərbaycan həmişə münaqişənin sülh yolu ilə aradan qaldırılması istiqamətində mühüm addımlar atıb. Görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyev Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdandan sonra hər şeydən əvvəl böyük müdriklik və uzaqgörənliklə qan tökülməsinin qarşısını aldı. 1994-cü ilin mayında atəşkəs haqqında müqavilə imzaladı, müharibəni dayandırdı, ölkədə sabitliyə nail oldu. Bu, həm də dövlətimizin sülh arzusunun ifadəsi idi.

Bu il Azərbaycanla Ermənistan arasında atəşkəsin imzalanmasından 23 il keçir. BMT Təhlükəsizlik Şurasının 1993-cü il 822, 853, 874 və 884 saylı qətnamələrinin, Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağla bağlı münaqişənin həll edilməsini, regionda sülh və təhlükəsizliyə təhlükə yaradan bütün hərbi əməliyyatların, düşmənçilik aktlarının dərhal dayandırılmasını, atəşkəsin təmin edilməsini, bütün erməni hərbi qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasını nəzərdə tutan BMT Baş Məclisi tərəfindən qəbul edilmiş 14 mart 2008-ci il tarixli qətnamənin tələbləri yerinə yetirilmir və atəşkəsin pozulması halları tez-tez qeydə alınır. Ermənistan tərəfindən sülhə və təhlükəsizliyə saymazyana münasibət bəslənilir, işğal altında olan torpaqlarımızda mövcud mədəni irsimiz mənimsənilir, nadir tarixi abidələrimiz amansızcasına dağıdılır. Bütün bunlar dünyada sülhün bərqərar olmasına mənfi təsir göstərir.Bu gün qüdrətli və güclü orduya malik Azərbaycan və onun Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev də xalqın sülh arzusunu ifadə edərək, münaqişənin sülh yolu ilə, qan tökülmədən, beynəlxalq hüquq çərçivəsində həlli istiqamətində gərgin iş aparır.

**Zamir PAŞAYEV,**
**Qəbələ rayon prokurorunun köməkçisi.**

# Qəbələdə RILO-Moskva Regional Məlumat Əlaqələndirmə Qovşağının16-cı iclası keçirilib

Sentyabrın 18-də Qəbələ şəhərində Ümumdünya Gömrük Təşkilatının MDB ölkələri üzrə hüquq-mühafizə fəaliyyətinə dair RILO-Moskva Regional Məlumat Əlaqələndirmə Qovşağının iştirakçı ölkələrinin gömrük xidmətlərinin milli əlaqələndirmə qovşağı rəhbərlərinin 16-cı iclası keçirilib.

İclasa Azərbaycan, Belarus, Rusiya, Qazaxıstan və Qırğızıstan gömrük orqanlarının əməkdaşları, eləcə də RILO-Seulun məsul nümayəndəsi qatılıb.

Tədbirdə çıxış edən DGK sədrinin müavini, gömrük xidməti general-leytenantı Şahin Bağırov hüquq-mühafizə fəaliyyəti çərçivəsində RILO-Moskva ilə əməkdaşlığın inkişaf etdiyini bildirib. Qeyd edilib ki, Azərbaycan Gömrük Xidmətinin RILO-Moskva ilə gömrük hüquqpozmalarına qarşı mübarizə, eləcə də təcrübə və informasiya mübadiləsi sahəsində əməkdaşlığı ilbəil genişlənir.

RILO-Moskvanın direktoru Oleq Bakanov təmsil etdiyi qurumun fəaliyyətinə toxunaraq diqqətə çatdırıb ki, RILO-Moskvanın qarşısında duran əsas vəzifələrdən biri də gömrük sahəsində qanun pozuntuları barədə informasiyanın ötürülməsi, yoxlama mexanizmi və realizə edilməsi, analitik işlərin təşkilidir. Direktor belə mühüm görüşlərin regiondakı mövcud durumun dərindən öyrənilməsində xüsusi əhəmiyyət kəsb etdiyini, bununla da iştirakçı ölkələr arasında əməkdaşlığın daha effektiv və hərtərəfli olacağına əminliyini vurğulayıb.

Çıxışlardan sonra RILO-Moskvanın 2018-ci il üzrə iş planı razılaşdırılıb, iclasın yekun qərarı qəbul edilib.

**«Qəbələ»**

# Mülki müdafiə ümumxalq işidir

*Qəbələ Rayon İcra Hakimiyyəti, Respublika Fövqəladə Hallar Nazirliyi Şamaxı Regional Fövqəladə Hallar və Mülki Müdafiə Şöbəsi və Qəbələ Rayon Təhsil Şöbəsi ümumtəhsil məktəbləri müəllimləri üçün birgə seminar keçirmişlər. Seminara rayon ümumtəhsil məktəblərinin II, V və VI sinif rəhbərləri dəvət olunmuşdu. Dərs planına əsasən həmin siniflərdə mülki-müdafiə üzrə dərslər keçirilir. Seminarın keçirilməsində məqsəd mülki müdafiə ilə əlaqədar müəllimlərə istiqamət vermək, onları proqramla təmin etmək idi.*



Seminarı giriş sözü ilə Qəbələ Rayon İcra Hakimiyyətinin hüquq şöbəsinin müdiri Məhəmməd İsmayılov açdı və sözü Fövqəladə Hallar Nazirliyi Şamaxı Regional Fövqəladə Hallar və Mülki Müdafiə Şöbəsinin rəisi vəzifəsini icra edən mayor Sərvan Əsədova verdi.

Sərvan Əsədov mülki müdafiə işinin əhəmiyyətini nəzərə alaraq, şagirdlərin bu sahədə məlumatlandırılması və fövqəladə hallara hazır olmaları üçün müəllimlərin üzərinə düşən vəzifələri geniş şəkildə izah etdi. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin yaranma tarixi, strukturu, maddi texniki bazası və icra etdiyi funksiyaları haqqında videoçarx nümayiş etdirildi.



Şamaxı Regional Fövqəladə Hallar və Mülki Müdafiə Şöbəsinin əməkdaşı, baş leytenant Asim Atakişiyev ümumtəhsil məktəblərində mülki müdafiə dərslərinin planlaşdırılması və dərslərin tədrisi barədə geniş izahat verdi, müəllimlərin suallarını cavablandırdı. Müəllimlərə mülki müdafiə dərslərinin planlarını payladı.

Sonda Fövqəladə Hallar Nazirliyinin, müxtəlif xidmətlərin—səhiyyə, polis, rabitə, suvarma işləri və sair sahələrlə birlikdə Qəbələ rayonunda həyata keçirdiyi taktiki təlimə dair filmə baxış keçirildi. Seminarda respublika FHN Mülki Müdafiə İdarəsinin əməkdaşı baş leytenant Samit Sadayev iştirak edirdi.

**Rais RƏŞİDOV.**
**«Qəbələ»**
**Fotolar Səhrab Umuyevindir.**